# “Dəniz kuboku” müsabiqəsində iştirak edən Azərbaycanın hərbi dənizçiləri Bakıya qayıdıb

“Beynəlxalq Ordu Oyunları - 2021” yarışları çərçivəsində “Dəniz kuboku” müsabiqəsində iştirak edən Azərbaycan Hərbi Dəniz Qüvvələrinin hərbi qulluqçuları Bakıya qayıdıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 6-da Azərbaycan hərbi dənizçilərinin qarşılanma mərasimi keçirilib.

Qeyd edək ki, müsabiqəyə Hərbi Dəniz Qüvvələrinin G-122 və G-124 gözətçi gəmiləri ilə qatılan komandamız üçüncü yerə layiq görülüb.



Azərbaycan. - 2021.- 7 sentyabr.- S.6.